**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# PANİNİ, POR-ROYAL VƏ NOAM XOMSKİ QRAMMATİKALARI DEDUKTİV YANAŞMA KONTEKSTİNDƏ

| | |
|---|---|
| İxtisas: | 5704.01 – "Dil nəzəriyyəsi" |
| Elm sahəsi: | Filologiya elmləri |
| İddiaçı: | **Qismət Qalib oğlu Cəfərov** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Əbülfəz Əjdər oğlu Rəcəbli** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Məsud Əhməd oğlu Mahmudov** |
| | filologiya elmləri doktoru, dosent<br>**Leyla Musa qızı Xanbutayeva** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Heydər İzzət oğlu Quliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurası.

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədri: | _______________ | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi: | _______________ | filologiya elmləri doktoru, dosent<br>**Aysel İlqar qızı Məmmədbəyli** |
| Elmi seminarın sədri: | _______________ | filologiya elmləri doktoru, professor<br>**Fərman Hüsən oğlu Zeynalov** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dil haqqındakı elmin inkişafının a) müqayisəli, b) sistem-struktur və c) antroposentrik olmaqla hər üç dövrü hər dəfə yeni paradiqmanın bütün mübahisəli məqamları ilə son dərəcə israrlı təqdimindən başqa, həmin paradiqmanın tarixi əsaslandırılması, daha doğrusu, "tarixəqədərki" əsaslarının ortaya çıxarılması da həmişə böyük maraq doğurur. Müqayisəli dilçiliyi dilçiliyin tarixində, ümumiyyətlə, qrammatika və filologiyadan sonra irəli atılmış addım sayan F. de Sössür deyir ki, *"bu məktəbə hər halda həqiqi elmi dilçilik yaratmaq qismət olmadı. O, öyrəndiyi predmetin təbiətini müəyyənləşdirməyə də cəhd göstərmədi"*[1]. "Ümumi dilçilik kursu"nun nəşrindən (1916) çox keçmədi ki, həm Avropa, həm də Amerikada struktur dilçilik məktəbləri müxtəlif istiqamətlərdə (deskriptivizm, qlossematika, funksional və s.) inkişaf edərək, dilə müqayisəli-tarixi və müqayisəli-tipoloji yanaşmaların nüfuzunu məhdudlaşdırdı. XX əsrin ortalarında ümumən elmdə, o cümlədən dilçilikdə antroposentrizmin miqyas alması isə sistem-struktur təhlilin aparıcı mövqeyinə kifayət qədər ciddi zərbə vurmuş oldu. Etiraf etmək lazımdır ki, bu gün dil haqqındakı elmin ümumi mənzərəsinin yaranmasında hər üç paradiqma bu və ya digər dərəcədə iştirak etsə də, N.Xomskinin əsasını qoyduğu "dilçilik nəzəriyyəsi" bir sıra baxımlardan daha aktualdır. Bizim tədqiqat işimizin aktuallığını da, ilk növbədə, məhz bu mövzuya həsr olunması müəyyən edir.

Amerika dilçi-mütəfəkkirinin irəli sürdüyü nəzəriyyə kifayət qədər böyük maraq doğurmuş, məzmun-mündəricəsi, metodoloji texnologiyaları, digər elm sahələrinə təsir imkanları ilə yanaşı, onun (törədici qrammatikanın və ya dilçiliyin) "keçmiş"i, "indi"si və "gələcəy"i barədəki mülahizələri ilə dilçiliyin gündəmində qalmaqdadır. Hazırkı dissertasiya işinin aktuallığını təmin edən ikinci məqam sözügedən nəzəriyyənin bilavasitə "keçmiş"inə həsr olunmasıdır ki, burada dilə (dillərə) universal və rasional (məntiqi)

---

[1] Sössür, F. Ümumi dilçilik kursu / tərc.ed. N.Cəfərov, İ.Temiroğlu. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, – 2018. – s.13.

münasibətin tarixi mahiyyəti aşkarlanır. Qədim hind (Panini) qrammatikasından Por-Royal (Kartezian) qrammatikasına, oradan da XX əsrə – transformasiyon (və törədici) qrammatikaya gedən yolun deduktiv yanaşma kontekstində nəzərdən keçirilməsi, bir tərəfdən, N.Xomski nəzəriyyəsinin çox hallarda hələ də mübahisəli olan əsasları barədə aydın təsəvvürə yiyələnmə, digər tərəfdən, XVII-XVIII əsrlərin Kartezian dilçiliyi, eləcə də dünyagörüşü ənənələrini layiqincə qiymətləndirmək baxımından önəmlidir. Hər şeydən əvvəl ona görə ki, yeni "dilçilik nəzəriyyəsi" öz tarixi köklərini bütün polemik məqamları ilə birlikdə bəyan edəndən sonra nəinki XVII-XVIII əsrlər, bütövlükdə dilçilik tarixini ideya, metod və üsulların təkamülü baxımından yenidən nəzərdən keçirmək tələb olunur. Həm də burada söhbət yalnız N.Xomskinin mövqeyini şərh etməkdən yox, ümumən dilə deduktiv yanaşmanın tarixini yaratmaqdan gedir ki, əlbəttə, hər hansı halda istinad nöqtəsi yeni nəzəriyyənin müdafiə elədiyi metodoloji prinsiplərdir.

Dissertasiyanın aktuallığını müəyyən edən məqamlardan biri də qədim hind qrammatikası – Ror-Royal qrammatikası – V. fon Humboldt – F.de Sössür – N.Xomski xətti ilə hərəkət edən dil araşdırmaları fonunda dilçiliyin analitik (və universal) tarixini yaratmaq təşəbbüslərinə müəyyən töhfə verməsidir.

"Ümumi və rasional qrammatika" müxtəlif ideoloji, metodoloji yönlərdən kifayət qədər öyrənilsə də, əsər dilçilikdə indiyəcən bu qədər yüksək mövqeyə layiq görülməmişdir.

Tədqiqatın mövzusuna daxil edilmiş Panini qrammatikasına gəldikdə isə məqsəd, bir növ, Por-Royal "məktəbi"nin "tarixəqədərki" vəziyyətini "rekonstruksiya etmək" cəhdindən ibarətdir ki, həmin əsər barəsində də müfəssəl araşdırmalar aparılmışdır.

Dünya dilçiliyində F.Maks Müller, M.A.Şripad K.Belvalkar, A.Mişra, C.Kardona, B.Faddeqon, B. Şefts, Y.S.Stepanov, C.Layonz və b. fərqli istiqamətlərdə tədqiqatlar aparmışlar. Azərbaycanda isə mövzuya A.Qurbanov, A.Axundov, M.Adilov, Ə.Rəcəbli, F.Veysəlli, N.Cəfərov, A.Məmmədov, İ.Abbasov və b.-nın əsərlərində bu və ya başqa münasibətdə toxunulmuşdur. Ancaq təəssüflə etiraf etməliyik ki, dünyada son dərəcə populyar nəzəriyyə

Azərbaycan dilçiliyinin maraq dairəsinə yeni-yeni daxil olduğundan hələ elə bir uğura imza atılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini dil haqqındakı elmin inkişaf tarixi, predmetini isə Panini – Por-Royal – N.Xomski xətti ilə gələn ümumi və rasional qrammatika (nəticə etibarilə, dilçilik) nəzəriyyəsinin təkamül yolu təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi qədim hind qrammatikasından başlayaraq N.Xomski qrammatikasına qədər dilə deduktiv yanaşma kontekstində ortaya çıxmış dilçilik baxışlarının xronologiyasını təqdim etməkdən ibarətdir ki, bu zaman tədqiqatçının qarşısında aşağıdakı vəzifələrin həlli dayanır:

– Panini, Por-Royal və N.Xomski qrammatikaları arasındakı varisliyin metafizikasının müəyyən edilməsi;

– Dilə deduktiv yanaşmanın tarixi kökləri: Panini qrammatikasından Por-Royala gedən yoldakı axtarışların analitik icmalı;

– N.Xomski qrammatikası dilə deduktiv yanaşmanın keyfiyyətcə yeni mərhələsi kimi: problemlər, mülahizələr;

– Dilə deduktiv yanaşma kontekstində məzmun və forma münasibətləri: Por-Royal qrammatikası, "Sintaktik strukturlar"dan "Sintaktik nəzəriyyənin aspektləri"nə, "Kartezian dilçiliyi"ndən "Dil və təfəkkür"ə.

**Tədqiqat metodları.** Tədqiqat zamanı təsviri, tarixi-müqayisəli metodlardan istifadə olunmuş, dilçiliyin tarixini obyektiv öyrənmək üçün tətbiq edilən ümumfəlsəfi metodoloji baxışlara (o cümlədən paradiqmalar nəzəriyyəsinə) əsaslanılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Qədim hind (Panini) qrammatikası, eləcə də ondan sonra gələn yunan, ərəb-müsəlman və s. qrammatikaları Por-Royal qrammatikasının yaranması üçün tarixi əsas olmuşdur.

– Por-Royal qrammatikası dilə münasibətdə ümumi (universal) və məntiqi (rasional) baxışların XVII əsrə, ilk növbədə Rene Dekarta məxsus bütöv bir sistemini əks etdirir ki, həmin baxışlar XIX əsrin birinci yarısına – ümumi dilçiliyin banisi V. fon Humboldta qədər inkişaf etmişdir.

– Amerika dilçisi N.Xomskinin XX əsrin ortalarında Por-Royal qrammatikasına xüsusi münasibəti onun yeni dilçilik nəzəriyyəsinin

tarixi əsaslarını müəyyən edir.

– N.Xomskinin ümumi (və törədici) qrammatika (dilçilik) axtarışları "dünən", "indi" və "gələcək" miqyasında böyük bir metodoloji maraq sferası yaratmışdır ki, həmin miqyas dil haqqındakı elmin tarixinə müqayisəli-tarixi və sistem-struktur dilçilik də daxil olmaqla yenidən baxmağı tələb edir.

– Panini – Por-Royal – N.Xomski xətti ilə gələn qrammatika (dilçilik) nəzəriyyəsi dil və təfəkkür, o cümlədən dildə məzmun və forma münasibətlərinə baxışda yeni üfüqlər müəyyənləşdirir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda ilk dəfə olaraq N.Xomskinin yeni "dilçilik nəzəriyyəsi"nin qədim hind dilçiliyindən (Paninidən) başlayıb Kartezian dilçiliyindən (Por-Royaldan) keçərək V.fon Humboldta qədər uzanan elmi-metodoloji kökləri sistemli olaraq araşdırılmışdır. Həmin köklərin, xüsusilə Kartezian dilçiliyinin yeni "dilçilik nəzəriyyəsi" – "törədici qrammatika" üçün nə qədər əhəmiyyətli olduğu N.Xomski tərəfindən hər nə qədər sübut olunsa da, bu məsələdə mübahisələr az deyil. Ona görə də dissertasiyada həmin mübahisələrə müəyyən aydınlıq gətirməyə çalışılmış, N.Xomskinin mövqeyinin həm düzgün, həm də perspektivli olduğunu əsaslandırmağa cəhd göstərilmişdir.

Məlumdur ki, "dilçilik nəzəriyyəsi" müəllifi öz yeni ideyalarını elmi mühitə birdən-birə deyil, tədricən – əgər belə demək mümkünsə, təkamül yolu ilə təqdim eləmişdir. Bu həmin təkamülün "xronologiya"sını müəyyənləşdirmək marağı doğurur ki, dissertasiya müəllifi sözügedən problem üzərində, ona məlum olduğu qədər, ilk dəfə geniş şəkildə dayanmış, təkamül mərhələlərinin hansı səbəblərdən irəli gəldiyini əsaslandırmışdır.

Əsərin başqa bir yeniliyi ondan ibarətdir ki, dilin deduktiv yanaşma kontekstində tədqiqinin ənənəvi Panini – Por-Royal (hind-Avropa) miqyası genişləndirilərək buraya ərəb-müsəlman dilçiliyinin orta əsrlərdəki metodoloji uğurlarını da daxil etməyə təşəbbüs göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyətini müasir dövrdə çox aktual olan N.Xomski araşdırmalarına, xüsusilə onun yeni "dilçilik nəzəriyyəsi"nə münasibət müəyyən edir ki, buraya həmin nəzəriyyənin a) mənşəyi,

b) müasir imkanları və c) perspektivləri barədəki mülahizələr daxildir.

Tədqiqatın praktik əhəmiyyətinə gəldikdə isə, ondan dilçiliyə dair yeni xüsusi kursların hazırlanmasında, müvafiq proqramların və dərs vəsaitlərinin tərtibində istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları müəllifin məqalələrində, elmi konfranslardakı məruzələrinin tezislərində, Bakı Dövlət Universitetinin filologiya fakültəsində dediyi dərslərdə və çap etdirdiyi vəsaitlərdə əks olunmuşdur.

**Dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Bakı Dövlət Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 6 səhifə (10 069 işarə), I fəsil 39 səhifə (75 772 işarə), II fəsil 42 səhifə (78 634 işarə), III fəsil 37 səhifə (71 012 işarə), Nəticə hissəsi 3 səhifə (4 942 işarə) təşkil edir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 240 429 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekt və predmeti, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli **"Panini, Por-Royal və Noam Xomski qrammatikaları: varisliyin metafizikası"** adlanır və üç paraqrafdan ibarətdir.

I fəslin ***"Panini qrammatikası"*** adlanan birinci paraqrafda göstərilir ki, Panini (e.ə. IV əsr), Por-Royal (1660) və N.Xomski (XX əsrin ikinci yarısı) qrammatikaları bir-birindən çox fərqli dövrlərdə

yaranıb dilçilik tarixinin müxtəlif epoxalarına düşsə də, hər üçünü ümumi məcrada birləşdirən elə varislik xüsusiyyətləri mövcuddur ki, metodoloji baxımdan bu varisliyin dialektikasından daha çox məhz metafizikasından danışmaq lazım gəlir. Əlbəttə, müasir dilçilik nəzəriyyəsində belə bir mövqeyin formalaşıb geniş miqyas almasında N.Xomskinin baxışları həlledici rol oynamış, istər Panini, istərsə də Por-Royal qrammatikasına marağı, təbii olaraq, son dərəcə yüksəltmişdir.

Dilçilik tarixi araşdırmaları belə bir qənaətə gəlməyə imkan verir ki, istər Hindistanda, istərsə də Yunanıstanda (eləcə də bir qədər sonra onun müstəmləkəsi olan Misirdə) yaranan qrammatika elmi qədim hind (sanskrit) və qədim yunan dilləri kimi möhtəşəm nitq təzahürlərinin ədəbi-dini nüfuzuna xidmət etmişdir. Tamamilə təbiidir ki, qədim qrammatikaların həmin funksiyası, nəticə etibarilə, onların özlərinin – qrammatikaların da əsrlər boyu nəinki toxunulmaz qalmasını təmin eləmiş, eyni zamanda bu ənənə sonrakı dövrlərdə tarix səhnəsinə çıxan məlum dillərin (məsələn, ərəb, latın) müvafiq qrammatikalarına da aid olmuşdur. Əlbəttə, hindlilərdən fərqli olaraq, yunanlar dil (əslində, ədəbi nitq) məsələsinə daha geniş miqyasda yanaşmışlar. Bunun əsas səbəbi odur ki, hindlilərin sərəncamında daha çox dini mətnlər, yunanların istifadəsində isə daha çox ədəbi mətnlər var idi. Ona görə də Aristotel "Poetika"da qrammatikanın hüdudlarını aşaraq Homerin, Esxilin, Evripidin nitq təcrübələrindən bəhs edir. Hətta demək olar ki, müasir nitq aktları nəzəriyyəsinin (praqmalinqvistikanın) fundamentini təşkil edəcək qədər mükəmməl qənaətlərə gəlir. Halbuki belə bir "nəfəs genişliyi" sonrakı dövrün yunan (İskəndəriyyə) qrammatikalarında müşahidə edilmir.

Panini qrammatikasının a) qədim hind (sanskrit) dilinin mükəmməl təsvirini verməsi, b) yalnız qədim dövr deyil, bütün orta əsrlər üçün də hind dilçiliyini təmsil etməklə yanaşı, xüsusilə ərəb-müsəlman dilçiliyinin nümunəsində beynəlxalq təsir imkanlarını da etiraf etmək lazım gəlir. Hər şeydən əvvəl ona görə ki, ərəb-müsəlman mədəniyyəti ərəb, fars və türk dillərində yaranmış mənbələr qədər olmasa da, hər halda hinddilli abidələrə də həssas olmuş, hind dili, ümumən mədəniyyəti ilə eyni zamanda hind

dilçiliyi də müsəlmanların maraq dairəsindən kənarda qalmamışdır. Ərəb-müsəlman dünyasında çox məşhur olan "hind müdrikləri"nin qrammatika təlimləri, əslində, islam dininin daşıyıcılarına yunan qrammatikasından ona görə daha yaxın idi ki, həm hindlilərin, həm də ərəb-müsəlmanların linqvistik təcrübəsində kanonik dini mətnlərin (kitabların) ədəbi dilini xalq danışıq dilinin "dağıdıcı" qeyri-ədəbiliyindən qorumaq kimi müqəddəs missiya qərarlaşmışdı. Zahirən elə görünür ki, burada məsələ tələffüz (fonetika), yaxud söz seçimi (leksika) ilə yekunlaşır, qrammatika, xüsusilə onun funksional "periferiya"sı olan sintaksis o qədər də diqqəti cəlb etmirdi. Halbuki Şərqdə "səs" və "söz" anlayışlarının məzmununda, daha dəqiq desək, həmin anlayışların mahiyyətində həmişə "dil"in özü əks olunmuşdur ki, bunu ərəbcənin "lüğət" terminində aydın görmək mümkündür: "lüğət" hər nə qədər "söz" (sonrakı dövrlərdə daha çox "sözlük") mənasını versə də, nəticə etibarilə, "dil" deməkdir.

İstər Panini qrammatikasında, istərsə də hind qrammatikasının təsirini öz üzərində hiss etdirən ərəb-müsəlman qrammatikası ənənəsində ədəbi tələffüz (orfoepiya) normalarının yazı (orfoqrafiya) normaları ilə birbaşa bağlı olması (qədim dilçilər danışıq səsinə, adətən, hərf deyirlər) nitq praktikasının bir məsələsidirsə, digər mühüm məsələ fonetikanın həm morfemi, həm də sintaksemi əhatə etməsidir. Belə ki, əslində, tələffüz olunan söyləm, yəni fikir, mənadır; ayrı-ayrı danışıq səslərinin (hərflərin) tələffüzü yalnız "klassik" tədris prosesində, həm də onun ilk mərhələsində müəyyən əhəmiyyət kəsb edir.

Sanskritin mükəmməl təsvirini vermiş Panini qrammatikası həm hind, həm də Avropa alimləri tərəfindən dərindən təhlil olunmuş, qrammatikanın sistem, metod və modelləri barədə müfəssəl nəticələrə gəlinmişdir.

Ümumiyyətlə, paninişünaslığa aid ədəbiyyatdan mövzumuzun tələb etdiyi istiqamətlər üzrə çıxardığımız əsas nəticələr aşağıdakılardan ibarətdir:

a) Panininin, bütövlükdə qədim hind dilçiliyinin nə qədər özünəməxsus terminologiyası, tədqiqat metodu, dil materialı olsa da, o, təcrid olunmuş, tamamilə əlahiddə bir hadisə deyil;

b) hind-Avropa dil tipologiyasının səciyyəvi, eyni zamanda yüksək inkişaf səviyyəsi baxımından nümunəvi faktı olan sanskrit üçün təsbit edilmiş qaydalar bütün hind-Avropa dil sistemi üçün retrospektiv kanon kimi nəzərdən keçirilə bilər;

c) sanskrit qrammatikası ümumən insan dili qrammatikasının tipik hadisəsi olaraq ümumi (universal) və məntiqi (rasional) qrammatika modelinə yaxındır.

I fəslin ***“Por-Royal qrammatikası”*** adlanan ikinci paraqrafında göstərilir ki, XIII-XIV əsrlərdən etibarən Avropada artıq “ölü dilə” çevrilməsinə rəğmən, latın dili nümunəvi bir dil hadisəsi kimi təqdim olunmağa başladı. Nə qədər paradoksal görünsə də, bu, hind, ərəb-müsəlman dilçiliyi ənənəsinin davamı sayıla bilər: müqəddəs hind, ərəb-müsəlman (“Qurani-Kərim”) mətnləri kimi latın dili mətnləri də tarix səhnəsinə ciddi ədəbi nitq tələbləri ilə çıxmışdı. Doğrudur, latın dili qrammatikaları öz normativlikləri ilə dilçiliyin inkişafına mane olurdu, ancaq dilin məntiqiliyi və universallığı barədəki qədim təsəvvürləri də qoruyub saxlayır, inkişaf etdirirdi.

Panini qrammatikası ilə Por-Royal qrammatikasını müqayisə edərkən ortaya çıxan fərqlər nə qədər çox olsa da, varisliyin metafizikası az əhəmiyyət kəsb etmir. Fikrimizcə, bu metafizikanın əsaslarını aşağıdakı məqamlarda axtarmaq lazımdır:

a) qədim hind (sanskrit), qədim yəhudi, qədim yunan, qədim Roma (latın) və yeni hind-Avropa dillərinin genetik əlaqəsində;

b) həmin dillərin genetipologiyası üzrə qurulmuş dil (qrammatika) modellərində;

c) yeni dövrün əvvəllərindən başlayaraq nüfuz qazanan rasional qrammatikanın retrospektiv və prospektiv baxışlarında.

Təbiidir ki, Panini qrammatikasının “neytrallığ”ına qarşı Por-Royal qrammatikasının fəlsəfi-metodoloji mövqeyi dayanırdı. Bu isə o demək idi ki, yeni dövr hər sahədə olduğu kimi, “nitq sənəti” sahəsində də istər qədim dövrün, istərsə də orta əsrlərin “mistik neytrallığ”ından fərqlənir. Başqa bir mühüm məsələ orta əsrlər boyu formalaşan bu və ya digər nüfuzlu bir dilin kanonik subyekti və ya “fərdi özünəməxsusluğ”u təsəvvürü ilə yeni dövrün əvvəllərindən (əslində, intibah dövründən) başlayan “insan dili” ideyasının

müqayisəsi və bu müqayisənin qabaqcıl ictimai şüurda doğurduğu təəssüratlar idi.

Por-Royal elmi mühitində “Ümumi və rasional qrammatika” ilə təxminən eyni vaxtda “Məntiq və ya düşünmə sənəti” də hazırlanmış, ikinci əsər “Qrammatika”dan iki il sonra – 1662-ci ildə nəşr olunmuşdur. “Qrammatika”nın rus dilinə tərcüməsinə yazdığı “Por-Royal Avropa mədəniyyətində” adlı ön sözdə Y.S.Stepanov göstərir ki, *“Por-Royal qrammatikası” ilə “Por-Royal məntiqi” vahid məntiqi-linqvistik konsepsiyanın iki hissəsidir”*[2]. Dilçi-mütəfəkkir bunu təsadüfi hesab etmir. Y.S.Stepanovun fikrincə, Por-Royal konsepsiyası XVII əsrin ümumi güclü rasionalizm axınına mənsubdur. Dekart rasionalizmi, heç şübhəsiz, onun başlıca əsasını təşkil edir.

Por-royalçılar istər qrammatikanın, istər məntiqin, istərsə də qrammatika ilə məntiq arasındakı münasibətlərin mahiyyətinə varanda həm dinin, həm də rasionalizmin kanon və prinsipləri ilə hesablaşmalı olmuşlar. Məsələnin mürəkkəbliyi isə onda idi ki, həmin münasibətlər yeni dövrün çağırışlarına uyğun olaraq tez-tez dəyişirdi. “Rasionalizmin nəzəriyyədən metoda çevrilməsi” dövrün ideyalar axınında aydın görünürdü ki, onu gerçəkləşdirən də məhz Dekartın dühası olmuşdur[3]. Hər cəhətdən görünür ki, Por-Royal məntiqini və qrammatikasını yaradanlar, ilk növbədə, ruhani – ilahiyyatçı yox, alim kimi çıxış edirdilər. Bu isə o demək idi ki, hər iki sahədə əldə edilən uğurlar Dekart fəlsəfəsinə dayandığından onun elmi proqramını da, əsasən, qəbul etməli idi. Dövrün fəlsəfi polemikaları mütəxəssisləri belə bir qənaətə gətirmişdir ki, Dekartın por-royalçılara təsiri heç də birmənalı olmamış, Antuan Arno bir sıra hallarda dahi filosofla mübahisəyə ehtiyac duymuş, onun ayrı-ayrı müddəalarına tənqidi yanaşmaqdan çəkinməmişdir[4].

Məlum olduğu kimi, yeni dövr dilçiliyinin tarixində yalnız elmi-nəzəri təfəkkürün “dindən fəlsəfəyə keçid”i ilə deyil, eyni

---

[2] Арно, А. Грамматика общая и рациональная Пор-Рояля / А.Арно, Кл.Лансло. Перевод с франц. Н.Ю.Бокадорова. Вступительная статья Ю.С.Степанова – Москва: Прогресс, – 1990. – с.12.

[3] Yenə orada, – s.15.

[4] Yenə orada, – s.19-21.

zamanda müxtəlifsistemli dillər barədəki məlumatların toplanması sahəsindəki uğurlarla səciyyələnir. Həmin dövrdə Avropada qədim dillərdən latın, yunan və yəhudi, yeni dillərdən isə italyan, island, Niderland, alman, flamand, ingilis dilləri məşhur idi. Qeyd edək ki, Klod Lanslo "Universal qrammatika" ilə yanaşı, bir sıra "xüsusi" qrammatikaların da müəllifi olmuşdur ki, buraya latın, qədim yunan, ispan dillərinin qrammatikaları daxil idi[5].

Beləliklə, bir tərəfdən, dilə deduktiv-fəlsəfi (universal-məntiqi) baxış, digər tərəfdən, müxtəlif dillərin həmin baxış sferasına daxil edilməklə müəyyən induktiv istinad təcrübəsinin qazanılması por-royalçılara imkan verdi ki, öz qrammatik-məntiqi mülahizələrində kifayət qədər ardıcıl olsunlar. Bu isə "nəzəriyyədən metoda" keçməyin o baxımdan rəhni idi ki, dilə münasibətdə induksiya ilə deduksiyanın, başqa sözlə dilin (nitq fəaliyyətinin və ya müxtəlif dillərin müqayisəsində nitq təcrübəsinin) nümunəsində təfəkkürlə nitqin qarşılıqlı əlaqəsini nümayiş etdirirdi.

I fəslin ***"Noam Xomski qrammatikası"*** adlanan üçüncü paraqrafında göstərilir ki, dilçilik öz tarixinin sistem-struktur paradiqmasını məhz struktur dilçilik məktəbləri miqyasında arxada qoyana qədər artıq xüsusilə Amerika deskriptivizminin nümunəsində antroposentrizmin bir sıra təmayülləri meydana çıxmağa başlamışdır ki, onların əksəriyyəti insanın idrak imkanlarının tədqiqinə yönəlmişdir – burada əsas məsələ dillə təfəkkürün əlaqəsi idi. Qədim dövrlərdən bəri "dil fəlsəfəsi"ni maraqlandıran ən mühüm məsələ - "təfəkkürün qrammatikası (məntiq)" ilə "dilin qrammatikası (dilçilik)" arasındakı münasibətlər məsələsi XX əsrin ortalarında bir daha gündəmə gələrkən dil haqqındakı elmin yerinə idrak haqqındakı elmin keçməsi hər hansı halda təbii idi. Hər şeydən əvvəl ona görə ki, istər Panini, istərsə də Por-Royal qrammatikası təfəkkürü məhz dil vasitəsilə izah etmək iddiasında olsa da, bu, olduqca sxematik səciyyə daşıyırdı. Por-royalçılar dillə təfəkkürü qrammatika zəminində hər nə qədər "barışdırmağ"a çalışsalar da, bu, "dil"dən "təfəkkür"ə müdaxilənin hələ ki, ilk ciddi təşəbbüslərindən başqa bir

---

[5] Арно, А. Грамматика общая и рациональная Пор-Рояля / А.Арно, Лансло Кл. – Перевод с франц. Н.Ю.Бокадорова. Вступительная статья Ю.С.Степанова – Москва: Прогресс, – 1990. – с.26-27.

şey deyildi. Çox keçmədi ki, əvvəl müqayisəli-tarixi, sonra isə sistem-struktur dilçilik metod – paradiqmaları dili təfəkkürdən, demək olar ki, bütünlükdə ayıraraq insanı, mahiyyət etibarilə, "dilsiz" və "təfəkkürsüz" qoyur. Ancaq bir həqiqət də var ki, insan müəyyən müddət (müqayisəli-tarixi və sistem-struktur araşdırmalar dövründə) "dilsiz" və "təfəkkürsüz" qalmasaydı, nə dil və təfəkkür, nə də insanın mahiyyəti barədə aydın bir təsəvvür əldə etmək olmazdı. Çünki hər bir məntiqi inteqrasiyadan əvvəl eyni dərəcədə məntiqi (və təbii) diferensiasiya gəlməlidir.

Deskriptiv dilçilikdə təsvir bir neçə mərhələdən (müstəqim tərtibçilər, transformasiyon qrammatika və s.) keçərək generativ, yaxud törədici qrammatika ilə özünün ən yüksək səviyyəsinə çatsa da, N.Xomskinin bir sıra cəhdləri göstərir ki, qarşısına qoyduğu problemləri heç də tamamilə həll edərək klassik qrammatikanın nüfuzunu tamamilə ikinci plana keçirə bilməmişdir. Lakin törədici qrammatikanın aşkar üstünlüyü ondadır ki, burada bilavasitə nitq fəaliyyətinin, yaxud danışıq aktının öyrənilməsi və beləliklə, dil yaradıcılığının (kreativliyinin) antroposentrik (fərdi) analizi ön plana keçirilir. Təhlil texnikası bir qayda olaraq, söyləmin (P) isim və feil frazalarına (NP-VP) bölünərək nitq prosesinin daxili tələblərinə uyğun şaxələndirilməsindən ibarətdir. Törədici qrammatikada söyləm nitq hissələrinə ayrılmaqla onu ən kiçik mənalı elementlərin müvafiq sırası ilə əhatə edir.

N.Xomski tərəfindən irəli sürülən törədici qrammatika nəzəriyyəsi dilin yaradıcı xarakterini və sintaktik strukturların insan təfəkkürünün fərdi yaradıcılıq aktı olduğunu vurğulamış, bu strukturların qrammatikanın törəmə xüsusiyyətləri olduğunu qeyd etmişdir. Bu yanaşma XVII əsrdə – Kartezian dövründə dilin yaradıcı bir vasitə kimi nəzərdən keçirilməsi ilə sıx bağlıdır. Belə ki, dilin bu cür qiymətləndirilməsi, insanın hər an yeni cümlələr qurma qabiliyyətinə malik olduğunu və bunun da fərdi yaradıcılığın bir göstəricisi olduğunu ifadə edir. Sintaktik tədqiqatlara N.Xomskinin marağı ilə qrammatikaya münasibətdə dil linqvistikası (daxili dilçilik) nitq linqvistikasına (xarici dilçiliyə) güzəştdə gedir ki, bu da antroposentrik (praqmatik) paradiqmanın müasir elmdə, o cümlədən də dilçilikdə qazandığı çox böyük nüfuzla bağlıdır.

N.Xomski sələflərindən fərqli olaraq nitqə riyazi, aydın, təbiətşünaslıq texnikası tətbiq etməklə “ruhun riyaziyyatı”nı aydınlaşdırmağa çalışır. Əslində, N.Xomskinin axtarışları nitq → dil → təfəkkür istiqamətində irəliləyərək dilə realist düşüncə aktı kimi elmlərarası miqyas nümayiş etdirir. “Noam Xomski” kitabında C.Layonz göstərir ki, *“... hazırda dilçilər, psixoloqlar və filosoflar arasında maraqların əhəmiyyətli dərəcədə yaxınlaşması müşahidə olunur. Lakin bu yaxınlaşma “muxtar” dilçiliyin inkişafı nəticəsində baş vermişdir; və məhz dilçilik (xüsusən də Xomskinin işi) bu üç elmin ittifaqı üçün ilham mənbəyi olmuşdur”*[6].

N.Xomskinin mühüm xidmətlərindən biri qrammatikaya (sintaksisə) məna anlayışını bütün mübahisəli tərəfləri ilə birlikdə gətirməsidirsə, ikincisi “alt” və “üst” strukturlar üzərində israrıdır. Belə ki, hər bir söyləm özünün cümlə modelini alana qədər, yəni təfəkkürdən dilə “keçənə” qədər fərdin dil yaradıcı imkanlarından asılı olaraq müxtəlif formalarda təzahür edə bilər.

Dissertasiyanın II fəsli **“Panini, Por-Royal və Noam Xomski qrammatikalarında deduktiv metodun aspekt və üsulları”** adlanır və üç parqrafdan ibarətdir.

II fəslin birinci pararqafı ***“Dilə deduktiv yanaşma metodu haqqında”*** adlanır. Dilçiliyin tarixində bu və ya digər paradiqmanın, yaxud dövrün meydana çıxması, bir qayda olaraq, metod dəyişikliklərinin meydana çıxması ilə müəyyən olunur. Lakin onu da etiraf etmək lazımdır ki, həmin dəyişiklik bəzən özünü aşkar şəkildə göstərsə də, bir çox hallarda uzun zaman şübhə doğurur və ya elmin inkişafı baxımından nə dərəcədə əhəmiyyətli olub-olmaması etibarilə mübahisələrə gətirib çıxarır.

Panini, Por-Royal və N.Xomski qrammatikalarına deduktiv metod zəminində yanaşma bu qrammatikaların təbiətindən irəli gəlir. Panini qrammatikası predmeti olan sanskrit dilinə insan dilinin nümunəvi təzahürü kimi baxır, bu təzahürü məhz ümumən insan dili olaraq alır, onun “ilahidən gələn” qayda-qanunlarını hansısa intellektual intuisiya ilə təsbit edirdi. Por-Royal qrammatikası müəllifləri, artıq qeyd edildiyi kimi, R.Dekart fəlsəfəsinə əsaslanırdılar. Yeni dövrün əvvəllərinin dahi filosofu isə *“intuisiyanı*

[6] Lyons, J. Noam Chomsky / J.Layons. – New York, The Viking Press, – 1970. – p.13.

*deduksiyadan da yüksəyə qoyur, düşünürdü ki, onun vasitəsi ilə şüur həqiqəti "bilavasitə görür", halbuki deduksiya düşüncə yolu ilə alınmış, qəbul edilmiş mühakimələrdə mövcud olanlardan heç nə ilə fərqlənməyən dolayı bilik verir"*[7]. Deduksiyanı əqli nəticə çıxarmaq metodu kimi çox da uğurlu saymayanlar da olmuşdur. Məsələn, *"F.Bekon, onun ardınca ingilis "induktivistlər"i belə hesab edirdilər ki, həqiqi biliyi yalnız induksiya verir. Q.V.Leybnis belə bir ideya irəli sürdü ki, deduksiyanın əsasında duran məntiq qanunları "bütün mümkün aləmlərdə həqiqidir"*[8].

Dilçiliyin ən azı üç istiqaməti mövcuddur: həm humanitar, həm texniki, həm də təbiət elmlərinə məxsus xüsusiyyətləri daşıdığına görə dilə yanaşmada bəzən deduksiya, bəzən də induksiya ön plana keçir. Bu da bir həqiqətdir ki, dilçiliyin riyazi elmlərə yaxınlaşması (N.Xomskinin təcrübəsində olduğu kimi) deduktiv metodun rolunu xeyli artırmışdır.

XX əsrin ortalarından sonra Amerika dilçiliyində deskriptivizmin ardınca start götürən linqvistik araşdırmalar generativ qrammatikaya (dilçiliyə) gətirən bütöv bir axının əsasını qoydu ki, həmin axının nə vahid bir istiqamətdə, nə də polemikasız, müxtəlif ideyaların və mövqelərin maneçiliyi olmadan getdiyini demək doğru olmazdı. Ancaq bir təmayül heç cür şübhəyə əsas vermirdi ki, dilçilikdə deduktiv metodun nüfuzu induktiv metodla müqayisə edilməyəcək qədər artır və bu yöndəki tədqiqatlar həm ABŞ-nin, həm də ingilis dilinin hüdudlarını aşaraq bütün dünyaya yayılırdı. Əlbəttə, istər ən çox təqdir, istərsə də ən çox tənqid olunan N.Xomskinin əsərləri idi.

N.Xomski "Sintaktik strukturlar"da öncə yaratdığı nəzəriyyənin metodunu əsaslandırmasını təqdim edir. O göstərir ki, araşdırma həm geniş mənada, yəni semantikaya əks olaraq, həm də dar mənada, yəni fonologiya və morfologiyaya əks olaraq sintaksisə – sintaktik strukturlara həsr olunmuşdur. Bu araşdırma linqvistik strukturun formallaşdırılmış ümumi nəzəriyyəsini qurmağa edilən cəhdin tərkib hissəsidir. Yeni nəzəriyyə müəllifi linqvistik strukturun

---

[7] Azərbaycan Milli Ensiklopediyası / Red.hey.sədri İ.H.Əliyev. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, – c. 6: – 2015. – s.407.
[8] Yenə orada. – s.407.

modellərini qurarkən "məntiqi incəliklərə riayət etməkdən, yaxud linqvistik təhlilin ənənəvi metodlarını qaydaya salmaqdan" söhbət getmədiyini xatırlatmaqla yanaşı yazır: *"Mən düşünürəm ki, linqvistika nəzəriyyəsinin dəqiq və "texniki" inkişafının dəyərini şübhə altına qoyan dilçilər, görünür, nəzəriyyənin izahında ciddi metodların məhsuldar imkanlarını vəziyyətə uyğun və ya yayğın formullaşdırma düzəlişlərinin köməyi ilə yersiz nəticələrdən qaçmaq cəhdləri ilə qarşılaşmadan onları linqvistik materiala dəqiq tətbiq etməyin məhsuldar imkanlarını qiymətləndirə bilməmişlər"*[9].

N.Xomskinin yeni qrammatika yaratmaq sahəsindəki çalışmalarının ilk mərhələsində onun metoduna şübhə edənlərə bu cür prinsipial mövqedən qarşı çıxması ona görə təbii idi ki, tədqiqat metodunun dəqiqləşdirmə və "texnikiləşdirmə" istiqamətində dərinləşdirilməsi spontan bir hadisə deyildi. Amerika dilçiliyinin, o cümlədən N.Xomskinin sələflərinin, eləcə də bilavasitə müəllimlərinin tədqiqat təcrübəsində artıq bir neçə mərhələdən keçmişdi.

N.Xomski əlavə edir ki, *"biz linqvistik strukturun üçüncü – transformasiyon modelini inkişaf etdiririk ki, o, bəzi mühüm münasibətlərdə müstəqim tərtibçilər modelindən daha güclü olub həmin münasibətləri təbii olaraq izah edir"*[10] .

"Sintaktik strukturlar" dilçilik, eləcə də, texniki və təbiət elmləri üzrə mütəxəssislər arasında nə qədər məşhurlaşsa da, onun opponentlərinin də sayı az deyildi. Məsələn, ixtisasca filosof olan H.Putnam "Qrammatika nəzəriyyəsinin bəzi mübahisəli məsələləri" məqaləsində[11] N.Xomski ilə aşağıdakı kifayət qədər fundamental məsələlərdə mübahisə edirdi: 1) düzgün olmayan söyləmlərin tanınması; 2) qrammatika ilə semantika arasındakı hüdud xətləri; 3) mənanın müstəqilliyi; 4) qrammatikanın muxtariyyatı; 5) transformasiyon qrammatikaların təsvir problemi.

---

[9] Chomsky, N.A. Syntactic structures / N.A.Chomsky. – Hague-Paris:Mouton, – 1957. – p.5.

[10] Yenə orada, – s. 6.

[11] Putnam, H. Some issuesin the Theory of Grammar. "Structure of Language and Its Mathematical Aspects" // Proceedings of Symposia in Applied Mathematics, vol. XIII, – California, –1961. – p.25-42.

N.Xomski isə "Sintaktik strukturlar"dan sonra çap etdirdiyi məqalələrdə öz nəzəriyyəsini həm müdafiə etmiş, həm də inkişaf etdirmişdir[12].

Dilə, onun qrammatikasına, nəhayət, cümlə quruluşuna deduktiv yanaşmada "Sintaktik nəzəriyyənin aspektləri" irəliyə doğru ciddi addım idi. Tamamilə təbiidir ki, "Aspektlər" geniş bir "Metodoloji giriş"lə başlayır. Müəllif göstərir ki, *"bu əsər sintaktik nəzəriyyənin və ingilis sintaksisinin müxtəlif məsələlərinə toxunacaqdır ... Linqvistik nəzəriyyə, ilk növbədə, tamamilə eynicinsli nitq ümumiliyində mövcud olan ideal "danışan – dinləyən"i nəzərdə tutur ki, onlar dillərini kamil bilir və onun real işlədilməsi zamanı öz dil biliklərindən istifadədə yaddaşın məhdudlaşması, fikir dağınıqlığı, diqqətin və marağın yayınması, səhvlər (təsadüfi və ya qanunauyğun) kimi mahiyyətə aid olmayan qrammatik şərtlərdən asılı deyillər"*[13]. N.Xomski əlavə edir: *"Mənə elə gəlir ki, müasir ümumi dilçiliyin əsasını qoyanların mövqeyi məhz belə olmuş və ona yenidən baxmaq üçün heç inandırıcı əsas təklif olunmamışdır"*[14].

"Sintaktik strukturlar"la müqayisədə "Sintaktik nəzəriyyənin aspektləri" metod axtarışlarında deduktivliyə daha çox meyillidir ki, bu, müəllifin yeni dilçilik nəzəriyyəsinin mənbələrini əsaslandırmaq cəhdlərində də özünü göstərir. Birinci mərhələ, görünür, strukturalizmin ardınca F.de Sössür nəzəriyyəsindən də imtina olunmasıdır ki, bunun arxasınca V. fon Humboldtdan başlamaq meyli ortaya çıxır. Həmin meylin Por-Royala – Kartezian dilçiliyinə gedib çıxacağı da əvvəlcədən hiss olunur.

"Sintaktik nəzəriyyənin aspektləri" müəllifi öz nəzəriyyəsinin "diaxron" mövqeyini aşağıdakı şəkildə müəyyən edir: *"Mənim irəli sürdüyüm qarşılaşdırma Sössürün dil və nitq qarşılaşdırması ilə*

---

[12] Chomsky, N.A. On the Notion "Rule of Grammar" // Proceedings of the Twelfth Symposium on Applied Mathematics – Englewood Cliffs: Prentice-Hall, – 1964. – p.6-24; Chomsky, N.A. The Logical Basis of Linguistics Theory // Preprints of Papers for the Ninth International Congress of Linguistics – Cambridge, – 1962. – p.123-236.

[13] Chomsky, N.A. Aspects of the theory of syntax / N.A.Chomsky. – Cambridge: Massachusetts: The M.I.T. Press, – 1965. – p.3.

[14] Yenə orada, – s.3-4.

*bağlıdır; ancaq onun yalnız vahidlərin sistematik inventarından ibarət dil konsepsiyasını aradan qaldırıb tezliklə Humboldtun törəmə prosesləri sistemi kimi gizli kompetensiya konsepsiyasına qayıtmaq zəruridir”*[15].

Sintaksis nəzəriyyəsinin bir mühüm xüsusiyyəti də ondadır ki, o məhz dilin sintaktik səviyyəsində onun “yaradıcılıq” imkanlarının genişliyini, hətta daha doğru olar deyək ki, tükənməzliyini ilk növbədə nəzəri olaraq nümayiş etdirir.

Ümumiyyətlə, N.Xomskinin əsərlərinin aşağıdakı ardıcıllığı onun yaradıcılığında, başqa sözlə, dünyagörüşündə deduktiv metodun hansı mərhələlərlə daha geniş yayıldığını, daha miqyaslı sahələri ehtiva etdiyini göstərir: “Sintaktik strukturlar” (və “Sintaktik nəzəriyyənin aspektləri”) → ”Dil və təfəkkür” → “Minimalist proqram”.

Müşahidələr göstərir ki, dilin tədqiqinə deduktiv yanaşmanın tətbiqi kifayət qədər qədim köklərə, intuitiv səciyyə daşısa da müəyyən rüşeymlərə malikdir. XX əsrin ortalarından N.Xomskinin bu köklərə, rüşeymlərə qayıtması ilə deduksiyanın dilin fəaliyyət miqyasından çıxarılıb təfəkkürə, ümumən, insan fenomeninin dərkinə yönəldilməsi və bu zaman dilin özündən ən mötəbər material kimi faydalanmaq cəhdləri, heç şübhəsiz, müəyyən aspekt və üsulları ilə təzahür edir.

II fəslin ikinci paraqrafı *“**Dilə deduktiv yanaşmanın tarixi kökləri: Paninidən Por-Royala”*** adlanır**.** Dilə hər bir metodoloji baxışın tarixi kökləri vardır ki, bu özünü deduktiv yanaşmada da aydın şəkildə göstərir. Panini qrammatikası ilə Por-Royal qrammatikası arasındakı təxminən iki min illik bir dövrdə dilin qrammatikasının tədqiqi sahəsində deduksiya bir metod olaraq özünü necə, hansı funksional imkanları ilə göstərmişdir?

Panininin qrammatika təlimi yalnız deduktiv-fəlsəfi mövqeyi ilə seçilməsi ilə deyil, daha çox həmin mövqeli qrammatika kanonlarının əsasında dayanmaqla, bir növ, ilk mənbə kimi özünü göstərir. Həm də o mənada ki, Panini qrammatikasından başlayaraq (Por-Royal qrammatikasına qədər!) dillərin müqayisəsinin məqsədi

---

[15] Chomsky, N.A. Aspects of the theory of syntax / N.A.Chomsky. – Cambridge: Massachusetts: The M.I.T. Press, – 1965. – p.4.

universal cəhətləri aşkarlamaq idi ki, bu da dilin araşdırma üsullarının fəlsəfi-deduktiv təbiəti ilə bağlıdır.

"İnsan zəkasının ən böyük abidələrindən biri" (L.Blumfild) olan Panini qrammatikasındakı qaydaların cəbri düstur forması daşıyan xarakteristikası Qərbdə N.Xomski və digərləri tərəfindən oxşar generativ strukturdan danışılana qədər yüksək dəyərləndirilməmişdir. "Panini qrammatikasının arxitekturası haqqında" kitabında göstərilir ki, *"o* (Panini – Q.C.), *sadəlik kimi çox ümumi prinsiplərdən başqa heç nəyə əsaslanmır, "ümumbəşəri qrammatika"nın heç bir sxeminə əvvəlcədən öhdəlik götürmür... Generativ dilçilər, öz növbəsində, xüsusilə onun dahiyanə texniki vasitələrinə və onun nəzərdə tutduğu qaydaların tətbiqi və qarşılıqlı əlaqəni tənzimləyən mürəkkəb konvensiyalar sisteminə heyran olmuşlar ki, bu da müasir dilçilik nəzəriyyəsinin ideyalarını qeyri-adi şəkildə proqnozlaşdırır (sadəcə ona görə ki, onların çoxu ilk növbədə orijinal olaraq Paninidən götürülüb)"*[16].

N.Xomski özü də bildirirdi ki, Panininin qrammatikası "generativ qrammatika"nın fraqmenti kimi izah oluna bilər. A.Mişranın dediyi kimi*, "məhdud qrammatik qaydalar və sonlu terminlər toplusu ilə sonsuz sayda ifadələr yarada bilən dilin formal qrammatikası ideyası "Aştadhyan" ilə sıx paralellik doğurdu"*[17].

"Por-Royal qrammatikası" dilçilik tarixində rasional və universal yanaşmanın əsaslı bir ifadəsi kimi qəbul olunur. Bu yanaşmaya görə, cümlə strukturunun formalaşması ağıla əsaslanır və təfəkkürlə sıx əlaqəlidir. Təfəkkür isə mistik və ya qeyri-müəyyən deyil, əksinə, realist və məntiqi qaydalara əsaslanır. "Por-Royal qrammatikası" bu ideyanı ortaya qoyaraq dilin universal və rasional bir sistem olduğu fikrini irəli sürmüşdür ki, bu iki əsas prinsip – rasionallıq və universallıq Por-Royal qrammatistlərinin ən böyük nailiyyəti hesab olunur.

"Dilçiliyin qısa tarixi" müəllifi R.H.Robins por-royalçıları (rasional qrammatistləri) nəzərdə tutaraq yazır ki, "*onlar müxtəlif*

---

[16] Kiparsky, P. On the Architecture of Panini 's Grammar / P.Kiparsky. – Stanford: Stanford University Press, – 2002. – p.1.

[17] Mishra, A. Modeling Paninian System of Sanskrit Grammar / A.Mishra. – Heidelberg: Heidelberg University Publishing, – 2019. – p.10.

*dillərin ayrı-ayrı qrammatikalarının vahidliyini üzə çıxartmaq, eləcə də qrammatikanın qavrayış, mühakimə və məntiqi ehtiva edən düşüncəni ötürmək funksiyasını da araşdırmışlar”*[18].

“Por-Royal qrammatikası” müqayisəli tarixi dilçilik yanaşmasının təsiri ilə müəyyən qədər unudulsa da, onun əsas ideyaları – dilin rasional və universal bir fenomen olduğu fikri – müasir dilçilikdə yenidən ön plana çıxmışdır. Deməyə hər cür əsas var ki, “Por-Royal qrammatikası” həm rasional qrammatika ənənəsinin mühüm bir mərhələsi, həm də müasir dilçilik nəzəriyyələrinin ilham mənbəyi kimi böyük əhəmiyyətə malikdir. Nəticə etibarilə demək olar ki, Panini, xüsusilə Por-Royal qrammatikaları hər biri öz dövrünün metafizik görüşləri kontekstində dilə deduktiv yanaşmanın imkanlarını nümayiş etdirməklə N.Xomskinin linqvistik nəzəriyyəsinin tarixəqədərki fundamentini hazırlamışdır.

II fəslin üçüncü paraqrafı ***“Noam Xomski qrammatikası dilə deduktiv yanaşmanın keyfiyyətcə yeni mərhələsi kimi”*** adlanır. Panini, xüsusilə Por-Royal qrammatikaları sintaktik strukturların deduktiv yanaşma prinsipi ilə öyrənilməsində yalnız ilkin cəhdlər idi. Əslində, N.Xomski dil haqqındakı elmin hərəkət istiqamətini dəyişməsəydi, həmin cəhdlərin tarixi əhəmiyyəti bu dərəcədə diqqəti cəlb etməyəcəkdi.

N.Xomskinin “Sintaktik strukturlar”ı öz quruluşu, qarşıya qoyduğu problemləri həll etmək üsulları etibarilə dilçilikdə deduktiv metodun tətbiqi imkanlarının zəngin mənzərəsini yaradır. Ön sözdən sonra “Giriş” gəlir ki, artıq qeyd olunduğu kimi, burada sintaksisin tədqiqi texnikası barədə yığcam, lakin mükəmməl məlumat verilir. Əsərin sonrakı mövzuları belə sıralanır: qrammatikanın müstəqilliyi; elementar linqvistik nəzəriyyə; müstəqim tərtibçilər metodu; müstəqim tərtibçilər üzrə təsvirin məhdudluğu; linqvistik nəzəriyyənin məsələləri; ingilis dilində bəzi transformasiyalar; linqvistik nəzəriyyənin izahetmə gücü; sintaksis və semantika.

N.Xomski istər ənənəvi, istərsə də struktur qrammatikadan fərqli olaraq, cümlə anlayışına riyazi düşüncə ilə yanaşır. Onun təhlillərində sonluluğun və sonsuzluğun kəmiyyət ölçüləri yalnız

---

[18] Robins, R.H. A Short History of Linguistics / R.H.Robins. – California: Longman, – 1997. – p.123.

təsəvvürə gələn yox, həm də kifayət qədər dəqiqdir. Hər şeydən əvvəl ona görə ki, məhz aydın formalar, modellər əsasında mühakimə yürüdür. N.Xomski göstərir ki, *"cümlələr çoxluğuna bu üsulla müəyyən qədər formallaşdırılmış riyazi nəzəriyyə ilə dil kimi baxmaq olar. Dilin linqvistik təhlilinin əsas problemi L. dili cümlələrinin qrammatik baxımdan düzgün olan cümlə ardıcıllığını qrammatik baxımdan düzgün olmayan o ardıcıllıqdan fərqləndirməkdir ki, L. dilinin cümləsi deyil. Qrammatik baxımdan düzgün olan ardıcıllıq tədqiq edilməlidir. Beləliklə, L. dilinin qrammatikası özünü L.-in qrammatik baxımdan bütün düzgün ardıcıllıqlarını törədən və qrammatik baxımdan düzgün olmayan heç bir ardıcıllığı törətməyən mexanizm kimi təqdim edir"*[19].

Məlum olduğu kimi, törədici qrammatika N.Xomskinin "Sintaktik nəzəriyyənin aspektləri"ndə daha da inkişaf etdirilmişdir ki, həmin inkişafın əsasında deduktiv yanaşmanın bir sıra aspekt və üsulları dayanır. N.Xomski müəyyən etdi ki, induktiv metod dilin əsas anlayışlarını çatdıra bilməz. O, hipotetik-deduktiv paradiqmanın vacibliyini qeyd etdi. N.Xomskinin qrammatika, ümumən linqvistika nəzəriyyəsindəki deduktivlik kifayət qədər dərin və zəngin fəlsəfi-linqvistik əsaslar üzərində yaranaraq inkişaf etmişdir.

Dissertasiyanın III fəsli **"Dilə deduktiv yanaşma kontekstində məzmun və forma münasibətləri"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir.

III fəslin ***"Dildə məzmun və forma münasibətləri: Por-Royal qrammatikası"*** adlanan birinci paraqrafında göstərilir ki, dildə məzmun (məna) ilə formanın (ifadənin) fərqləndirilməsi, eləcə də onların bu və ya digər məqsədlə qarşılaşdırılması Por-Royal qrammatikasının ən səciyyəvi, hətta demək olar ki, konseptual xüsusiyyətlərindəndir. Əsərin əvvəlində göstərilir ki, *"nitq işarələrinə iki tərəfdən baxmaq olar. Birincisi odur ki, onlar öz təbiətlərinə görə, məhz səslər və hərflər olaraq nədən ibarətdir. İkincisi isə onların mənalarıdır, fikirlərini ifadə etmək üçün insanların onlardan necə istifadə etməsi üsuludur. Nitq işarələrinin*

---

[19] Chomsky, N.A. Syntactic structures / N.A.Chomsky. – Hague-Paris:Mouton, – 1957. – p.13.

*birinci tərəfi barədə bu qrammatikanın birinci hissəsində, ikinci tərəfi barəsində isə onun ikinci hissəsində söhbət gedəcəkdir"*[20].

"Qrammatika"nın birinci hissəsinin cəmi altı, ikinci hissəsinin isə iyirmi dörd fəsildən ibarət olması, əslində, o deməkdir ki, burada məzmun məsələlərinə formadan daha geniş yer ayrılmışdır. Ancaq onu da etiraf etmək lazımdır ki, məzmun və forma münasibətləri həm birinci, həm də ikinci hissədə öz əksini, daha doğrusu, şərhini tapmaqdadır.

Məzmun və forma münasibətlərinin birbaşa ifadəsi olan alt və üst strukturlar arasındakı münasibəti por-royalçıların nəinki nəzərində olmuş, hətta ona kifayət qədər konseptual yanaşmışlar. Belə ki, *"Por-Royalın nəzəriyyəsinin ümumi cəhətdən mahiyyəti bundan ibarətdir: hər bir cümlənin daxili, mental tərəfi (onun mənasını yaradan alt qat və xarici, maddi tərəfi – səslərin ardıcıllığı) vardır"*[21].

N.Xomski dönə-dönə etiraf edir ki, onun törədici qrammatikasının meydana çıxmasında por-royalçıların rolu ümumi prinsiplərin mövcudluğu ilə bitmir, bir sıra mühüm analitik məqamlar müşahidə olunur ki, orada "Ümumi qrammatika" transformasiyon qrammatikanın bilavasitə sələfi mövqeyində dayanır.

Dildə məzmun – forma münasibətlərinin öyrənilməsi tarixində mühüm məsələlərdən biri də onun dərkindən ibarət olmuşdu ki, *"alt strukturlar, mahiyyət etibarilə, müxtəlif dillərdə eynidir, onların ifadə vasitələri isə tamamilə fərqli ola bilər"*[22].

Por-royalçılar alt və üst strukturlar, məna və səs ardıcıllığı, məzmun və forma arasındakı münasibətlərin simmetriyasını öyrənmək, eləcə də buna adekvat qaydaların hesablanmasına nail olmaq üçün məqsədəuyğun şəkildə kifayət qədər dərinliklərə getmişlər. Nəticə etibarilə, deyə bilərik ki, Por-Royal qrammatikasının, eləcə də ümumən Kartezian dilçiliyi (və fəlsəfəsi) ideyalarının bir neçə əsrdən sonra – XX əsrin ortalarında törədici qrammatikanın timsalında

---

[20] Arnauld, A. The Port-Royal Grammar / A.Arnauld, C.Lancelot. – Paris: Mouton, – 1975. – p.71.

[21] Chomsky, N.A. Cartesian linguistics: A Chapter in the History of Rationalist Thought Second Edition / N.A.Chomsky. – Rochester, MN: Cybereditions Corporations, – 2002, – p.86.

[22] Yenə orada, – s.86.

geniş vüsət alması dil haqqındakı elmin ümumi tarixinin heç bir şübhə doğurmayan qanunauyğunluğudur.

III fəslin ikinci paraqrafı ***"Dildə məzmun və forma münasibətləri: "Sintaktik strukturlar"dan "Sintaktik nəzəriyyənin aspektləri"nə"*** adlanır. N.Xomskinin linqvistik nəzəriyyəsində dilə deduktiv yanaşma kontekstində məzmun və forma münasibətləri xüsusi yer tutur. Burada üç məqamı ayrıca qeyd etmək lazımdır ki, onlardan birincisi N.Xomskinin mövcud ənənələr üzərində yüksəlməsi, yəni tarixi qrammatik baxışları öz nəzəriyyəsinin fundamenti olaraq analitik bir şəkildə qəbul etməsidir; ikincisi odur ki, nəzəriyyə müəllifi "Sintaktik strukturlar"dan "Sintaktik nəzəriyyənin aspektləri"nə, oradan da "Dil və təfəkkür"ə qədər dildə forma və məzmun barədəki qənaətlərini inkişaf etdirmişdir; nəhayət, üçüncüsü, müəllif öz nəzəriyyəsində ən müxtəlif problemlərə, eləcə də məzmun və forma münasibətlərinə gələcək baxış perspektivlərini açıq saxlamışdır.

Forma ilə məzmunun (mənanın) linqvistik strukturların təhlilində qarşılıqlı əlaqədə alınması və ya tətbiqinin əhəmiyyəti barədə dilçilər arasında hər halda populyar olan "təcrübə"ni ciddi tənqid edən N.Xomski həmin əlaqəni "sübut" eləmək iddiasındakı bəzi məsələlərə aydınlıq gətirməklə yanaşı, bir sıra qəlibləşmiş dilçilik təsəvvürlərini aradan qaldırmağa çalışır. Fikrimizcə, onların ən maraqlılarından biri budur ki, cümlənin fonetik quruluşu ilə onun mənası (məzmunu) arasında bilavasitə əlaqə olmadığına (və ya gerçək olaraq təsəvvürə gəlmədiyinə) görə forma ilə məzmun arasında da belə bir əlaqə yoxdur. Olmayan bir şeydən danışmaq, əslində, onu hansısa nəzəriyyənin mərkəzinə gətirib çıxarmaq da yanlışdır. Doğrudur, formanın məzmundan, qrammatikanın semantikadan bu cür kəskin şəkildə "məhrum edilməsi" bəzən nəzəriyyə müəllifini konkret maneələr qarşısında qoyur, ancaq onu da etiraf etmək lazımdır ki, nəzəriyyənin ümumi elmi-metodoloji effekti həmin maneələri hələ ki ayrı-ayrı epizodik hadisələr kimi bir tərəfə qoymağa imkan verir.

N.Xomskinin "formal" qrammatika yaratmaq uğrundakı cəhdləri nə qədər ardıcıl olsa da, bu qrammatikanın müdafiəsi zamanı semantika məsələlərinin müzakirəsinə geniş yer ayırması

göstərir ki, yeni linqvistik nəzəriyyə yaradılması yolunda, həqiqətən, elə problemlər olmuşdur ki, onların etiraf edilməməsi mümkün deyil. Bu isə, ilk növbədə, aparılan müşahidə, analiz və sintezlərin hipotetik – deduktiv xarakterindən irəli gəlirdi. Nəzəriyyə müəllifinin "semantikadan qrammatikaya" deyil, "qrammatikadan semantikaya" baxış imkanları barədəki mülahizələrinə gəldikdə isə bu, fikrimizcə, öz "mənasız sintaksis"inə haqq qazandırmaqdan çox, forma və məzmun münasibətlərində yeni məqamlar kəşf etmək cəhdidir[23] .

III fəslin üçüncü paraqrafı ***"Dildə məzmun və forma münasibətləri: "Kartezian dilçiliyi"ndən "Dil və təfəkkür"ə"*** adlanır. N.Xomski dil haqqında yeni nəzəriyyəsinin ideya-metodoloji köklərini axtararkən (söhbət ondan gedir ki, nəzəriyyə, əslində, heç bir təsir olmadan müəllifin öz idrakının məhsulu kimi meydana gəlmiş, yalnız bundan sonra onun "tarixi köklər"ini öyrənməyə maraq yaranmışdı) XVII əsrə – "dahilər dövrü"nə daha çox istinad etməli olmuş, o dövrün ümumilik (universallıq), rasionalizm (ağlabatanlıq, həqiqətə uyğunluq) və deduksiya kimi önə çıxan prinsiplərini öz dil nəzəriyyəsinin fundamenti olaraq qəbul etmişdi. "Kartezian dilçiliyi"ndə XVII əsrin ortalarından XIX əsrin əvvəllərinə qədər davam edən, sonra isə daha çox romantizm ideyalarının təsirinə məruz qalan və nəhayət, tədricən, demək olar ki, unudulan böyük bir dilçilik, yaxud dil fəlsəfəsi cərəyanının əsas ideyaları araşdırılır.

N.Xomski "Kartezian dilçiliyi"ndə dildə məzmun – forma münasibətləri barədəki kartezianççı mühakimələrini müasir dilçiliyin dilinə "tərcümə etməyə" çalışır. Məlum olur ki, bu cür "tərcümə" üçün material kifayət qədərdir. Onların əksəriyyəti nə qədər ənənəvi terminologiya ilə danışsalar da, yeni dil nəzəriyyəsinin tarix səhnəsinə gələcəyi barədə öncədən xəbərdarlıq etmişlər. *"Beləliklə, hər hansı ifadənin sintaksisi mahiyyət etibarilə odur ki, biz onu alt struktur adlandırarıq, onun ifadə konstruksiyası isə odur ki, onu üst struktur adlandırırıq"*[24].

---

[23] Dildə məzmun və forma münasibətləri: "Sintaktik strukturlar"dan "Sintaktik nəzəriyyənin aspektləri"nə // – Bakı: Pedaqogika və Filologiya: elmi araşdırmalar, – 2024. № 2, – s.109.

[24] Chomsky, N.A. Cartesian linguistics: A Chapter in the History of Rationalist Thought Second Edition / N.A.Chomsky. – Rochester, MN: Cybereditions Corporations, – 2002. – p.99.

“Dil və təfəkkür” kitabı ilə N.Xomski özünün linqvistik nəzəriyyəsini yalnız dilçilik deyil, eyni zamanda ümumi fəlsəfi baxışlar kontekstində bir daha həm keçmiş, həm indi, həm də gələcək miqyasında nəzərdən keçirərkən məzmun – forma münasibətlərinə də müəyyən yer ayırmışdır.

“Kartezian dilçiliyi”ndən az sonra “Dil və təfəkkür”ün meydana çıxması N.Xomskinin çoxşaxəli yaradıcılıq axtarışlarında dildə məzmun və forma münasibətləri mövzusuna dil və təfəkkürün qarşılıqlı əlaqələri kontekstində yenidən baxmağın strategiyasını aktuallaşdırmış oldu.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat zamanı əldə edilmiş qənaətlər aşağıdakı şəkildə ümumiləşdirilmişdir:

1. N.Xomski belə bir ideyanın geniş yayılmasına öncüllük etdi ki, dilçiliyin XIX əsrdən daha əvvəlki dövrlərdə təşəkkül tapmış elə müddəaları, hətta elmi-metodoloji uğurları mövcuddur ki, dil haqqındakı elmin tarixinə məhz laqeyd yanaşıldığına görə diqqətdən kənarda qalmış, nəticədə, XIX-XX əsrlərin dilçilik tədqiqatları xüsusilə XVII-XVIII əsrlərə məxsus çox zəngin potensialdan məhrum olmuşdur.

2. Qrammatika tarixində varisliyin genetipoloji əsasını, N.Xomskinin fikrincə, qədim hind – mövcud ənənəyə görə, Panini qrammatikası təşkil edir ki, o, müasir hind-Avropa dillərinin ədəbi “əcdad”larından olan sanskritin təsvirini verməklə təxminən iki min beş yüz il bundan əvvəl yalnız hind – yunan – Roma – yeni hind – Avropa dilləri qrammatikasının təkamül yolunu müəyyənləşdirməmiş, eyni zamanda orta əsrlər ərəb-müsəlman qrammatikası (dilçiliyi) üçün də nümunə olmuşdur.

3. Panini qrammatikasından sonra dilə ümumi (və rasional) baxışın klassik nümunəsi olaraq Por-Royal qrammatikası hazırda ilk növbədə ona görə böyük maraq doğurmaqdadır ki, birincisi, həm qədim, həm də yeni dövrün bir neçə dilinin materialı bütövlükdə dil mövqeyindən tədqiqata cəlb edilmiş, ikincisi isə, müəlliflər məntiqi qrammatika təcrübəsinə uyğun olaraq söyləmin (cümlənin) “üst” strukturunun təhlili ilə kifayətlənməyib həmin təhlili “dərin” struktura qədər davam etdirmişlər.

4. Sanskrit qrammatikası – ümumi və ya rasional qrammatika – törədici qrammatika varisliyi özünün ən nəzəri-hipotetik təzahüründə belə dil haqqındakı elmin tarixi əsaslarından birini təşkil edən a) həm dil materialı, b) həm tədqiqat üsulları, c) həm də özünəməxsus anlayışlar sistemi etibarilə danılmaz konseptual gerçəklikdir.

5. Panini qrammatikasında deduksiyanın bir metod olaraq tətbiqinin təbiiliyi dövrün dünyagörüşündən irəli gəlir. Əlbəttə, bu, bütün sxolastik dəqiqliyi ilə sadəlövh bir deduktivlik olub qədim hind ədəbi dilini (sanskriti) ilahidən gələn insan dili etalonu kimi qəbul etmək (və etdirmək) iddiasının nəticəsidir ki, onu (sanskriti) hər hansı bir dillə müqayisə eləmək nəinki təcrübə, hətta ağıl xaricindədir. Bu qrammatikanın məşhur tədqiqatçıları (F.M.Müller, M.A.Şripad K.Belvalkar, A.Mişra, C.Kardona, B.Faddeqon, B.Şefts və b.) onun özünəməxsus sistemi olduğunu, həmin sistemə – qrammatika qaydalarına əməl etməyin sadəcə sosial-mədəni zəruriliyini deyil, ilahi-mistik tələblərini də qeyd etmişlər. Yeni dövrün elmi dilçilik baxışları səviyyəsindən bu, sadəlövh görünür, ancaq nəinki qədim hind, eləcə də qədim yəhudi, qədim yunan, qədim İran, orta əsrlər ərəb-müsəlman, latın-xristian sxolastik mətnlərinin dilinə münasibət də belə olmuşdur.

6. Por-Royal qrammatikasında deduktiv metodun tətbiqi, bir tərəfdən Panini qrammatikasına varislik edirsə, digər tərəfdən, yeni dövrün yeni fəlsəfi-metodoloji idrak, dünyagörüşü imkanlarını nümayiş etdirir. Əsasən, müqəddəs kitabların ifadəsi olaraq özəl ədəbi "karyera"sına başlayan qədim yəhudi, qədim yunan və orta əsrlər latın dilləri sanskritin tarixi təcrübəsində olduğu kimi ümumi (universal) kanonlarla "idarə olunurdular"sa, orta əsrlərin sonu, yeni dövrün əvvəllərində meydana çıxan yeni Avropa dillərinin ilk empirik müqayisə təcrübələri artıq deduktiv qənaətlərə ötəri də olsa müəyyən induktiv müqayisə fonunda, ondan impuls alaraq gəlirdi.

7. N.Xomski "Sintaktik strukturlar"dan başlayaraq öz dil nəzəriyyəsi araşdırmalarını deduktiv metodla aparmaqla kifayətlənmədi, həmin araşdırmaların aspektləri genişləndikcə nəzəri müddəalarının tarixəqədərki izlərini də axtararaq "kartezian dilçiliyi"nə gəlib çıxdı ki, bu, dilçilik tarixinə yeni münasibətin formalaşmasına əhəmiyyətli təkan verdi. Beləliklə, Hegelin məşhur

triadasına uyğun olaraq "ənənəvi qrammatika – tezis, struktur qrammatika – antitezis və nəticə etibarilə, törədici qrammatika – sintez" formulu meydana çıxmış oldu.

8. İstər Por-Royal qrammatikasında, istərsə də bütövlükdə kartezian dilçiliyində səslənmə - məna qarşılaşdırılması əsasdır ki, burada dil təhlil olunarkən maddi və ruhi, işarə edən və işarə edilən, nəticə etibarilə, forma və məzmun olmaqla hər iki tərəfi ilə təzahür edir. Universallığı və rasionallığı rəhbər tutan por-royalçıların formadan çox məzmuna üstünlük vermələri, "səslənmə"nin məntiqə tabeliliyi prinsipinə dayanmaları tamamilə təbii idi.

9. N.Xomskinin dildə məzmun və forma münasibətlərinə baxışlarında birinci mərhələ tədqiqatçının "Sintaktik strukturlar"ından başlayıb "Sintaktik nəzəriyyənin aspektləri"nə qədər davam edir. Əgər birinci əsərində cümləni (söyləmi) daha çox formal modellər əsasında araşdırırdısa, ikinci əsərində semantikaya marağın artdığı müşahidə olunur. Bu ona görə təsadüfi deyildi ki, strukturalizmdən antroposentrik dilçiliyə keçid forma – məzmun münasibətlərinə "aydınlıq" gətirməyi tələb edirdi. Əslində, N.Xomski qrammatikasına, bütövlükdə isə "yeni dilçilik nəzəriyyəsi"nə həmin münasibətləri ən çox bir-birinə yaxınlaşdıran və nəticə etibarilə, sözügedən mövzuya aid sualları ən çox bir mehvərə gətirən tədqiqat mərhələsi kimi baxmaq olar.

10. N.Xomskinin dildə məzmun və forma münasibətlərinə baxışlarının ikinci mərhələsi "Kartezian dilçiliyi"ndən "Dil və təfəkkür"ə qədərki illəri əhatə edir ki, bu mərhələdə araşdırıcı öz "yeni nəzəriyyə"sinin tarixi köklərini müəyyənləşdirib, bu günü və gələcəyi barədə bəhs edərkən mövzunu yeni görmə bucaqları altında bir daha nəzərdən keçirmişdir. Dildən istifadənin yaradıcı xarakteri, bu yaradıcılıq imkanının canlılar arasında yalnız insana verilməsi, həmin problem ətrafında R.Dekartdan V. fon Humboldta qədər söylənmiş müxtəlif mülahizələr XX əsr dilçisinin marağını daha çox "dil forması" barədəki anlayış üzərinə yönəldir.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Cəfərov, Q.Q. Qrammatika kanonlarının formalaşmasında Noam Xomski mərhələsi // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat, – 2022. № 1(118), – s.502-504.
2. Cəfərov, Q.Q. Dilçiliyin təşəkkülü: Panini qrammatikasından Por-Royal qrammatikasına // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2022. №12, – s.18-22.
3. Джафаров, Г.Г. Філософія сладкування: граматика Пор-Рояля та Паніні // – Украіна: Вчені записки Таврійського національного університету імені В.І.Вернадського, Серія: філологія. Журналістіка, – 2023. т.34(73), №2, ч.1, – с.120-126.
4. Cəfərov, Q.Q. Noam Xomskinin dilçilik araşdırmalarında deduktiv metod // – Bakı: Dilçilik araşdırmaları, – 2023. № 1, – s.153-159.
5. Cəfərov, Q.Q. Dilə deduktiv yanaşmanın Por-Royal miqyası // "Heydər Əliyev və milli-mənəvi irsimiz" mövzusunda Respublika elmi konfransı. – Bakı, – 16 may, – 2023, – s.160-164.
6. Cəfərov, Q.Q. Dildə məzmun və forma münasibətləri: "Sintaktik strukturlar"dan "Sintaktik nəzəriyyənin aspektləri"nə // – Bakı: Pedaqogika və Filologiya: elmi araşdırmalar, – 2024. № 2, – s.103-115.
7. Cəfərov, Q.Q. Noam Xomskinin linqvistik universaliyaları haqqında deduktiv mülahizələri dillərin dialoqu kontekstində // "Heydər Əliyev multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda beynəlxalq elmi konfransı. – Bakı, – 7 may, – 2024, – s.74-75.
8. Джафаров, Г.Г. Параметры дедуктивного подхода Наума Хомского к синтаксическим структурам // Сборник научных трудов IV международной научно-практической конференции. – Липецк, Россия, – 5 июня, – 2024, – с.62-72.

9. Cəfərov, Q.Q. Por-Royal qrammatikası məzmun və forma münasibətləri kontekstində // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar Elmlər seriyası, – 2024. № 4, – s.5-17.
10. Cəfərov, Q.Q. Dildə məzmun və forma münasibətləri: "Kartezian dilçiliyi"ndən "Dil və təfəkkür"ə // – Bakı: Terminologiya məsələləri, – 2025. № 1, – s.147-154.
11. Cəfərov, Q.Q. Noam Xomskinin dilə deduktiv yanaşmaları kontekstində interdissiplinarlıq // "VII Beynəlxalq Bəxtiyar Vahabzadə – türk dünyası dil, tarix, mədəniyyət və ədəbiyyat (Bəxtiyar Vahabzadə: Vətənpərvərlik və millilik)" adlı elmi konfrans. – Azərbaycan, Şəki, – 2025, – s.1228-1233.
12. Cəfərov, Q.Q. Generativ qrammatika nəzəriyyəsinin Noam Xomski postulatları // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş gənc dilçi doktorant və dissertantların sələflər və xələflər respublika elmi konfransının materialları. – Bakı: "Elm və təhsil", – 2025, – s.131-134.
13. Джафаров, Г.Г. Параметрическая модель Хомского в свете антропоцентризма биолингвистики // Междисциплинарные исследования в гуманитарных науках: медиальность, интермедиальность и постмедиальность в культуре и искусстве. Сборник материалов III Международной научной конференции. – Москва, – 27-28 марта, – 2025, – с.112-117. https://pureportal.spbu.ru/files/144894652/_2025.pdf

Dissertasiyanın müdafiəsi 25 iyun 2026-cı il tarixində saat 13:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.05.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 44745 işarə

Tiraj: 100